**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Ümumi hüququn hüquqi şəxsi - Gürcüstanın Milli Statistika Xidməti arasında statistika sahəsində əməkdaşlıq haqqında**
**ANLAŞMA MEMORANDUMU**

Bundan sonra "Tərəflər" adlandırılacaq, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Ümumi hüququn hüquqi şəxsi - Gürcüstanın Milli Statistika Xidməti,

statistika sahəsində uğurlu əməkdaşlığın möhkəmləndirilməsi və inkişafı məqsədi ilə,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq və öz səlahiyyətləri çərçivəsində aşağıdakı sahələr üzrə əməkdaşlıq edəcəklər:

a) beynəlxalq iqtisadi və statistika təşkilatları tərəfindən təşkil edilən tədbirlərdə iştirak etmək məsələsində qarşılıqlı əməkdaşlıq;

b) yeni informasiya texnologiyalarının tətbiqi sahəsində, o cümlədən, statistik məlumat bazalarının yaradılması və idarə edilməsi və statistik məlumatların yığılmasında informasiya texnologiyalarının istifadə edilməsi sahəsində təcrübə mübadiləsi;

c) statistik müayinələrin aparılması üçün müasir statistik metod və metodologiyalar üzrə məlumat mübadiləsi;

d) elmi və metodoloji tədqiqatlar sahəsində və qarşılıqlı maraq doğuran layihələrin həyata keçirilməsində əməkdaşlıq;

e) hər iki dövlətin sosial-iqtisadi vəziyyəti haqqında nəşrlərin (məsələn, illik, sahə və sahələrarası məcmuələr və bülletenlərin) mübadiləsi;

f) statistik müayinələrin, siyahıyaalmaların və müşahidələrin aparılması, statistik sistemlərin yaradılması və fəaliyyəti üçün zəruri olan statistik materialların və metodoloji sənədlərin mübadiləsi;

g) statistik məlumatların yığılması və təhlili sahəsində digər Tərəfin təcrübəsini öyrənmək məqsədilə mütəxəssislərin qarşılıqlı səfərləri.

**Maddə 2**

Hazırkı qarşılıqlı anlaşma Memorandumunun müddəalarının təfsiri və ya tətbiqi zamanı fikir ayrılıqları yarandığı təqdirdə Tərəflər onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

**Maddə 3**

Hər bir konkret halda digər qayda razılaşdırılmadığı təqdirdə Tərəflər hazırkı Memorandumun həyata keçirilməsi ilə bağlı xərcləri müstəqil surətdə ödəyir.

**Maddə 4**

Tərəflərin qarşılıqlı yazılı razılığına əsasən hazırkı Memoranduma onun ayrılmaz hissəsi olan ayrı-ayrı protokollarla rəsmiləşdirilən və Memorandumun 5-ci Maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minən dəyişikliklər və əlavələr edilə bilər.

**Maddə 5**

Hazırkı Memorandum, onun qüvvəyə minməsi üçün Tərəflərin zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında diplomatik kanallarla sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Hazırkı Memorandum 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri yuxarıda göstərilmiş müddətin başa çatmasına ən azı 6 (altı) ay qalmış hazırkı Memorandumu ləğv etmək niyyəti barədə digər Tərəfi yazılı şəkildə diplomatik kanallar vasitəsilə xəbərdar etmədiyi təqdirdə onun qüvvəsi avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılır.

Bakı şəhərində 2012-ci il "06" mart tarixində, hər biri Azərbaycan, gürcü və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər bərabər autentikdir. Bu Memorandumun müddəalarının təfsiri və ya tətbiqi zamanı fikir ayrılıqları yarandığı təqdirdə rus dilində olan mətndən istifadə ediləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi adından** | **Ümumi hüququn hüquqi şəxsi - Gürcüstan Milli Statistika Xidməti adından** |